*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 25 aprel 2018-ci il | № 31 (2247) | Qiymətı 25 qəpik


*Ön xətdən reportaj*

## "İşğalın sonuna az qalıb, Vətən!"



*Uzaq üfüqdə dan yeri söküülür. Doğmaqda olan günəşin zərrin şüaları işıq saçdıqca, adama elə gəlir ki, göyün üzündə nəhəng bir tonqal yandırılıb. Nəhayətsiz göy üzü min bir rənglə alışıb yanır, öz boya zənginliyi və gözəlliyi ilə insanı valeh edir.*

Sakitlik hökm sürən bir yaz səhəridi. Bir neçə müddət bundan əvvəl bu yerlərə gələndə hər tərəf ağ rəngə boyanmışdı. İndi isə təbiət yaşıl don geyinib. Ara bir buludların arasından boylanan günəş də sanki təbiətlə oyun oynayır.

Yenə də ön xətdə yerləşən hərbi hissələrdən birindəyik. Hərbi hissədə nizamnamələrin tələblərinə uyğun qarşılandıqdan sonra qərargaha daxil oluruq. Burada şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh mayor Əflatun İbrahimovla görüşürük. Zabit bələdçilik edəcək baş leytenant Ruslan İsmayılova müvafiq tapşırıqlarını verir və vaxt itirmədən döyüş mövqelərinə yola düşürük. Yol boyu zabitlə gedəcəyimiz mövqe və oradakı əsgərlərin döyüş hazırlığı barədə söhbət edirik.

Uzun yola söhbəti ilə körpü salan zabit dedi ki, ordumuzun gücü, qüdrəti daim artır. "Bu gün zabit və əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tez-tez cəbhə bölgəsinə səfər etməsi, yurdumuzun keşiyində dayanan, onu göz bəbəyi kimi qoruyan zabit və əsgərlərlə görüşməsi, onların xidmətini layiqincə qiymətləndirməsi hər bir hərbçinin döyüş ovqatını daha da artırır. Aprel döyüşləri zamanı ordumuzun şəxsi heyəti atəşkəs rejimini pozaraq torpaqlarımıza hücum çəkməyə cəhd göstərən erməni qoşunlarına tutarlı cavab verdi. Bizim bəzi bölmələrimiz də bu döyüşlərdə iştirak etdilər. Qısa müddət ərzində düşmənin atəş nöqtələri susduruldu. Burnu ovulan qəsbkarlar itki verərək geri çəkildilər. Ermənilər hiss etdilər ki, onların qarşısında döyüş hazırlığı yüksək olan, qartal kimi vüqarlı, polad kimi əyilməz Azərbaycan əsgəri dayanıb. Bir sözlə, yüksək döyüş hazırlığı ilə fərqlənən zabit və əsgərlərimiz aprel döyüşləri zamanı işğalçılara yaxşıca dərs verdilər. Düşmən hiss etdi ki, bu gücün, bu qüdrətin qarşısında dayana bilməz. Düşmən məğlubiyyətə məhkumdur. Azərbaycan əsgəri qələbəyə köklənib, eləcə də güclü, məğrur və yenilməzdir. Torpaqlarımızı erməni işğalçılarından azad etmək arzusu ilə yaşayır."

Yol boyu ətrafdakı yaşıllıq, insanların öz torpaqlarında əkin-biçinlə məşğul olması ruhuma sığal çəkir. Cəbhə bölgəsinə yaxın kəndlərdə yaşayan əhali də hərbçilərə güvənib bərəkətli torpaqlarını əkib-becərirlər. Onlar əmindirlər ki, ordumuz torpaqlarımızın keşiyində ayıq-sayıq dayanıb. Ətrafı seyr etdikcə, Dədə Qorqudun söylədiyi məşhur bir kəlam yadıma düşür: "Torpağı əkib-becərməsən, qorumağa dəyməz, qorumasan, əkib-becərməyə".

Bu gün dövlətimizin iqtisadiyyatı günü-gündən inkişaf edir və ölkəmiz Qafqazda ən güclü dövlətə çevrilib. Dünya ölkələri Azərbaycanı həm güclü bir orduya malik olması, həm də iqtisadiyyatı yüksək inkişaf etmiş bir dövlət kimi tanıyır.

Nəhayət, yaşayış məntəqələrini arxada qoyub ön xətdə yurdumuzu qoruyan şəxsi heyətin yanına gəlib çatırıq. Bizi qarşılayan leytenant Elnur Orucov ötən müddət ərzində heç bir hadisənin baş vermədiyini bildirir. Vətənin keşiyində dayanıb erməni işğalçılarının mövqelərini nəzarətdə saxlayan əsgərlərin üz-gözündən qəhrəmanlıq aşkar hiss olunurdu. Əmin olursan ki, onlar hər an düşmən üstünə atılıb rəşadət və hünər göstərməyə hazırdırlar.

**(Ardı 4-cü səhifədə)**

*Azərbaycan Ordusu - 100*

# Heydər Əliyev və Cümhuriyyət generalları



Xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə gələn Heydər Əliyevin diqqət mərkəzində olan çox ciddi məsələlərdən biri də ölkə ordusunun yenidən qurulması, ordunun, xalqın və bütün cəmiyyətin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə səfərbər edilməsi idi. Azərbaycan cəmiyyətinin ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi kimi vahid məqsəd ətrafında birləşdirilməsi, onun mübariz ruhunun təşkilatlandırılması və istiqamətləndirilməsi, mənəvi potensialının üzə çıxarılması üçün Heydər Əliyevin istinad etdiyi ən qiymətli meyarlardan biri xalqın hərbi və qəhrəmanlıq tarixi idi. Bu tarixi o, Azərbaycan xalqından miras qalmış zəngin və ibrətamiz bir sərvət kimi qiymətləndirir, ölkənin müdafiəsinin təşkilinin müxtəlif məsələləri ilə bağlı çıxışlarında hər bir vətəndaşı bu tarixə tapınmağa çağırırdı. Ulu Öndərin fikrincə bu tarix Azərbaycan xalqının Vətənə, torpağa bağlılıq, sevgi tarixi idi və bu tarixə sədaqət müstəqilliyin yaşarılığına real zəmin yarada bilərdi. Azərbaycan xalqının Ümummilli Lideri bildirirdi: "Azərbaycan Respublikasının öz torpaqlarını müdafiə etmək üçün böyük potensialı var. Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir. Bu, xalqımızın tarixi ənənələrindən irəli gələn hissidir. Güman edirəm ki, xalqımız tarixi ənənələrimizi, keçmişimizi yada salaraq Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün bundan sonra səmərəli tədbirlər görəcəkdir". Başqa bir çıxışında Heydər Əliyev deyirdi: "Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq ənənələri bu gün müstəqil Azərbaycan dövlətində yenidən yüksəlmişdir və daha da canlanacaqdır", "Azərbaycan xalqı tarix boyu, əsrlər boyu həmişə mərdlik, cəsarət, qəhrəmanlıq göstərmişdir, öz yurdunu, öz torpağını müdafiə etmişdir, öz mənliyini qoruyub saxlamışdır".

Ümummilli Lider xalqımızın qəhrəmanlıq tarixini yüksək qiymətləndirirdi və şübhə etmirdi ki, Azərbaycan xalqı bu tarixi ənənələri yaşadacaq, əcdadlarının yolunu davam etdirərək ölkənin müstəqilliyinin müdafiəsinə qalxacaq.

Heydər Əliyev bildirirdi ki, Azərbaycanın gənc nəslinin, onun ordusunun şəxsi heyətinin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onlarda qələbəyə dərin inam, Vətənə və torpağa sarsılmaz sədaqət hisslərinin aşılanması da xalqın qəhrəmanlıq tarixinin öyrənilməsi ilə daha təsirli və səmərəli ola bilər. Bu günün və sabahın ən yaxşı qəhrəmanlarının, vətənpərvərlərinin, xalqın tarixi qəhrəmanlarının timsalında yetişdirilməsi daha realdır. Hələ ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin ilk peşəkar Hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarov Azərbaycanın hərb tarixinin öyrənilməsinin qoşunların mənəvi-psixoloji əhval-ruhiyyəsinin sağlamlaşdırılması istiqamətindəki rolu barədə deyirdi: "Bolşevizmlə mübarizə tədbirlərindən biri xalqda sağlam milli hisslərin oyadılmasıdır. Bu, Azərbaycan Respublikasının yaranmaqda olan gənc ordusu üçün xüsusilə zəruridir. Bizim yalnız tatarlarla (azərbaycanlılarla - M.S.) komplektləşdirilən hərbi qüvvələrimiz öz xalqının dünya tarixinin səhifələrində çoxlu igidliklər yazmış, bütün Avropa xalqları tərəfindən xatırlanan və danışılan, ancaq özümüzün daha az bələd olduğumuz şərəfli hərbi keçmişini bilməlidirlər. Yüz ildən artıq davam edən Rusiya səltənətindən xilas olan türk (Azərbaycan - M.S.) xalqına xatırladılmalıdır ki, biz heç də həmişə əsarət altında olmamışıq, həm də öz iradəmizi Avropa və Asiyaya diktə etmişik. Güman edirəm ki, türk (Azərbaycan - M.S.) tarixinin bilicilərindən kimsə xalqımızın bu günə qədərki mühüm hadisələrini özündə əks etdirən tarixi barədə kütləvi kitabçaları hazırlamağı və çap etdirməyi tapşırmaq çox faydalı olardı... Bizim ziyalılarımızın əsas vəzifələrindən biri orduya onun tarixi keçmişini tanıtmaqdır".

Heydər Əliyev də məhz belə bir qəhrəmanlıq tarixini və qəhrəmanlıq ənənələrini xalq üçün nümunə göstərirdi. Qəhrəmanlıq tariximizin öyrənilməsi həm də Azərbaycanın hər bir əsgərinin və zabitinin dünyagörüşünü, onun hərbi təfəkkürünü genişləndirirdi ki, bu da Vətən qarşısındakı xidməti vəzifəyə şüurlu münasibətin zəruri tərəfi idi.

Ulu Öndər çıxışlarında Azərbaycan xalqının hərb tarixinə qızıl hərflərlə yazılmış sərkərdələrin adlarını qürurla çəkir və onların qəhrəmanlıqlarını müasirlərə nümunə göstərirdi. Onun istinad etdiyi belə sərkərdələr arasında Cümhuriyyət generalları olan Səməd bəy Mehmandarovla Əlağa Şıxlinskinin adları xüsusi yer tutur. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə bu il general Əlağa Şıxlinskinin 150, general Səməd bəy Mehmandarovun 160 illik yubileyləri bütün respublika miqyasında qeyd edilmişdir.

Səməd bəy Sadıq bəy oğlu Mehmandarov hələ çar Rusiyası ordusu tərkibində xidmət edərkən artilleriya üzrə tam general (general-polkovnik) rütbəsinə qədər yüksəlmişdi. S.Mehmandarov Azərbaycanın hərb tarixində Hüseyn xan Naxçıvanskidən sonra bu yüksək hərbi rütbəyə layiq görülmüş ikinci azərbaycanlı idi. Əlağa Şıxlinski isə bu rütbəyə S.Mehmandarovun təqdimatı əsasında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə layiq görülmüşdü.

Ümummilli lider Heydər Əliyev bu generalları həm I Dünya müharibəsinin, həm də Azərbaycan Xalq Cümhuriyyətinin iştirakçısı kimi xatırlayırdı.

Heydər Əliyev hər iki generalın Port-Artur müharibəsinin iştirakçısı olmasını da xatırlayaraq deyirdi: "Rus ordusunda böyük hörmət qazanmış Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski tariximizdə adlarını çəkdiyim generallara nisbətən daha da tanışdırlar. Onlar Rusiya-Yaponiya müharibəsində iştirak etmişlər, qəhrəmanlıq nümunələri göstərmişlər, sonra isə 1918-ci ildən başlayaraq Azərbaycanda Silahlı Qüvvələrin yaranmasında böyük xidmətləri olmuşdur" .

Səməd bəy Mehmandarovla Əlağa Şıxlinskinin digər hərbçilərə nisbətən daha çox məşhur olmasını Heydər Əliyev də qeyd edirdi. Onlar bu şöhrəti Port-Artur cəbhələrində, xüsusilə də I Dünya müharibəsi cəbhələrində qazanmışdılar. Səməd bəy Mehmandarov Port-Artur cəbhəsində ikən general-mayor rütbəsinə layiq görülmüşdü. Rus ordusunun Port-Arturda məğlub olmasına baxmayaraq Səməd bəyin general rütbəsinə layiq görülməsi də onun bir hərbçi kimi malik olduğu potensialdan xəbər verirdi.

İstər S.Mehmandarovun, istərsə də Ə.Şıxlinskinin xidməti, həyatının daha mühüm səhifələrindən biri olan I Dünya müharibəsi ilə bağlıdır. Əslində, bu müharibə Azərbaycanın hərbçilər nəslinin yetişməsinin sınaq meydanı oldu. Müharibənin başlanğıcında Ə.Şıxlinski Petroqradın topçu rəisi idi. Sonrakı illərdə o, bir neçə məsul vəzifələrə təyin edildi və 1917-ci ilin aprelində general-leytenant rütbəsinə layiq görüldü. Səməd bəy Mehmandarov isə I Dünya müharibəsi başlayanda piyada diviziyasının komandiri idi. O, 1915-ci ildə isə 2-ci Qafqaz korpusuna rəhbərlik edirdi. Elə həmin ildə də tam artilleriya generalı rütbəsinə layiq görüldü. I Dünya müharibəsinin gedişində S.Mehmandarovla Ə.Şıxlinski istedadlı və təcrübəli generallar kimi tanındılar və tapşırılan sahələrdə hərbi uğurları təmin etdilər. I Dünya müharibəsinin sonlarında Rusiyada baş verən çevrilişlərdən sonra ordunun siyasiləşməsi, siyasi iddialar fonunda hərbi savadın, təcrübənin, istedadın arxa plana keçməsi bu generalların hər ikisinin istefaya çıxması ilə nəticələndi və bununla da onların sonrakı taleyi Azərbaycanla bağlandı.

Bu generalların daha böyük uğurları Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil milli ordusunun formalaşdırılması sahəsindəki xidmətləri ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev bu dövrdə S.Mehmandarovun, Əlağa Şıxlinskinin və digərlərinin tarixi xidmətlərinə aşağıdakı kimi qiymət verirdi: "1918-ci ildə Xalq Cümhuriyyəti, Azərbaycanın ilk demokratik hökuməti dövlət quruculuğu işini çox mürəkkəb və çətin bir dövrdə apardığı zaman Silahlı Qüvvələrin yaranmasına və ordu quruculuğuna xüsusi əhəmiyyət vermiş, qayğı göstərmişdir."

Ümummilli lider Heydər Əliyev 2003-cü ilin iyununda Silahlı Qüvvələr günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə göndərdiyi təbrikində Cümhuriyyət dövründə aparılan ordu quruculuğuna və bu prosesdə Səməd bəy Mehmandarovla Əlağa Şıxlinskinin xidmətlərinə belə qiymət verirdi: "Azərbaycanda ordu quruculuğu prosesi çox çətin, mürəkkəb və ziddiyyətli mərhələlərdən keçmişdir. Xalq Cümhuriyyətinin mövcud olduğu 1918-1920-ci illərdə Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski və digər peşəkar hərbçilərin rəhbərliyi altında yüksək intizama və hərbi hazırlığa malik, döyüş qabiliyyətli milli ordu hissələri formalaşdırılmışdı. Azərbaycanın yeni yaradılmış ordusu Ermənistanın təcavüzünün qarşısının alınması, Qarabağda və digər ərazilərdə separatçı hərəkatların yatırılması və ölkə sərhədlərinin qorunmasında mühüm rol oynamış, öz hərbi qabiliyyətini nümayiş etdirə bilmişdi".

Cümhuriyyətin ordu quruculuğu Heydər Əliyev tərəfindən çox yüksək qiymətləndirilmişdir. O vurğulayırdı ki, çətin şəraitdə olmasına baxmayaraq, Cümhuriyyət ordusunun rəhbərləri yüksək intizama və hazırlığa malik, döyüş qabiliyyətli milli ordu hissələri formalaşdırdılar. "Bu qüvvələr uğurlu işlər gördülər və Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatlara qarşı mübarizə apardılar". Heydər Əliyev tərəfindən söylənən bu fikirlər Cümhuriyyət ordusunun formalaşma və fəaliyyət tarixinə qısa bir baxışdır. Onun bu müxtəsər fikrinin arxasında isə son dərəcə gərgin və yorulmaz bir fəaliyyət dayanır. Cümhuriyyət ordusunun təşkilati baxımdan formalaşdırılması, ordu quruculuğunun hüquqi bazasının hazırlanması, milli zabit kadrlarının hazırlığının təşkilatlandırılması, hərbi işdən uzaq düşmüş olan əhali arasında çağırış və səfərbərlik işinin qurulması, ordu quruculuğunun milli dəyərlər üzərində aparılması, ordu ilə xalq arasında qırılmaz əlaqələrin yaradılması, ordunun şəxsi heyətində Azərbaycanın müstəqilliyinə dərin sədaqət hisslərinin tərbiyələndirilməsi, bir-birinin ardınca piyada və süvari hissələrinin yaradılması, Azərbaycanın hərbi hava qüvvələrinin və hərbi dəniz qüvvələrinin əsasının qoyulması və s. işlər Səməd bəy Mehmandarovla Əlağa Şıxlinskinin rəhbərliyi altında aparılan uğurlu işlərin müxtəsər statistikasıdır. Bu sahələrdə əldə edilən nəticələrin dəyəri isə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində özünü göstərdi.

1919-cu ilin yazında və yayında Səməd bəy Mehmandarovun rəhbərliyi altında Azərbaycanın şimalında və Abşeron yarımadasında aparılan güclü müdafiə işləri Denikin ordusunu Azərbaycana hücumdan çəkindirdi. Elə həmin ilin yayında Lənkəran bölgəsində baş vermiş separatçılıq hərəkatına son qoyuldu. 1920-ci ilin yazında Qarabağda erməni təcavüzünə qarşı aparılan uğurlu mübarizə S.Mehmandarovla Ə.Şıxlinskinin rəhbərliyi altında yaradılan ordunun qəhrəmanlıq tarixinə yazılmalı olan şərəfli bir səhifədir.

Heydər Əliyev bu iki sərkərdənin xidmətlərini yüksək qiymətləndirirdi. "Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski uzun müddət çar Rusiyasının ordusunda xidmət edəndən, Xalq Cümhuriyyəti dövründə müstəqil Azərbaycan Ordusunun yaranmasına rəhbərlik edəndən sonra Azərbaycan Sovet Sosialist Respublikasında da ordu qurmaq, yaratmaq, azərbaycanlılara hərbi təhsil, təlim vermək işləri ilə məşğul olmuşlar. Bu, çox maraqlıdır, səciyyəvidir, amma eyni zamanda təbiidir. Çünki hərbi peşə, ixtisas birinci növbədə hərbi təhsil, təcrübə, bilik, hərbi təlim-tərbiyə, döyüş təcrübəsi tələb edir. Bunlar olmayanda ordu qurmaq, Silahlı Qüvvələr yaratmaq mümkün deyildir. Əgər bunlar, peşəkar hərbçilər varsa, ordu quruculuğunda onlardan səmərəli istifadə etmək olar. Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski buna əyani sübutdur".

**Mehman SÜLEYMANOV,**
**tarix elmləri doktoru,**
**ehtiyatda olan polkovnik**

# “Çox sağ olun, cənab Prezident!”

## Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailələri Azərbaycan Prezidentinin fərmanını böyük minnətdarlıqla qarşılayırlar



*Ermənistan ərazi iddiasıyla Azərbaycana qarşı elan etmədən müharibəyə başladı. İlk mərhələdə hücumların, həmlələrin qarşısını əhali, yerli müdafiə batalyonları, milislər alırdı, Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildikdən sonra - yaradılan, vahid komandanlıq altında formalaşan ordu...*

*Döyüşlərdə şəhid olanların, itkin düşənlərin ailələrinə dövlət qayğısı həmişə olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan və itkin düşən hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında fərmanı da bu qayğının təzahürüdür. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların, itkin düşənlərin anaları, bacıları bu sərəncamı unudulmayacaq dərdə təsəlli bilir, dövlət başçısına minnətdarlıq edirlər.*

**"Azərbaycan Ordusu"**

Oğlum Əli Cabbarov 1971-ci ildə anadan olmuşdu. Zahirən həmyaşıdlarından fərqlənmirdi.

Təhsil aldı. 1985-1988-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə oxudu. 1988-ci ildə Daşkənddə hərbi məktəbə daxil oldu. Məlum səbəbdən bir ildən sonra təhsilini davam etdirə bilmədi, hərbi xidmətə çağırıldı. Sabiq SSRİ-nin Silahlı Qüvvələrində hərbi xidmətdən sonra - 1991-ci ilin avqustunda Vətənə qayıtdı. Nəşriyyatda işlədi. Hiss olunurdu ki, nələrdənsə narahatdı. Bu narahatlıq Vətənə görəymiş. Könüllü döyüşlərə getdi.

Şuşada döyüşürdü. Mayın 6-da telefonla danışdıq. Heç nədən narazılıq bildirmədi, "Şuşanı qoruyuruq", - dedi. "Erməniləri bu tərəflərdən təmizləyəndən sonra görüşərik...". Döyüşdə düşmənin tankını, neçə döyüşçüsünü məhv edən oğlumun nə özüylə görüşə bildik, nə də nəşiylə...

Əli mayın 8-də başından ağır yaralanıb. Döyüşçülər onu çıxarda bilməyiblər. O vaxtdan Qırmızı Xaç Cəmiyyəti müraciətlərimizə dəqiq cavab verə bilmir. Ermənilər oğlumu öldürdümü, əsirdimi oğlum, bilmirəm. Gözləyirəm. Son nəfəsiməcən gözləyəcəm. Qız nəvəm Məmmədrəfi Kərimov C.Naxçıvanski adına Hərbi Liseydə oxuyur. Dayısının yolunu davam etdirəcək. Bu da mənə bir təsəllidi...

Ölkə başçısının bu fərmanını çəkilməz dərdimə təsəlli bilirəm. Bu, həm də böyük mənəvi dəstəkdir. Oğlu şəhid olanların, itkin düşənlərin ailələrinə bu sayğısına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə böyük minnətdarlığımızı bildiririk. Oğlumuzun unudulmaması dərdimizi yüngülləşdirir. Bu fərman da təsdiqləyir ki, ölkə başçısı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşənlərə, şəhid olanlara, itkin düşənlərə dövlət səviyyəsində ehtiram göstərir. Çox sağ olun, cənab Prezident!..

**Bətulə CABBAROVA,**
**Bakı şəhəri, Yasamal rayonu Qızıl Şərq küçəsi 98, mənzil 19**

Ağdam rayonunun Abdal Gülablı kəndində yaşayırdıq... Ermənilərin hücumları, həmlələri ara vermirdi. 16 yaşlı oğlum Taleh də döyüşənlərin sırasındaydı, kəndi müdafiə edirdi. 18 yaşı tamam olanda - 1993-cü ilin avqustunda hərbi xidmətə çağırıldı. Oğlumdu deyə tərifləmirəm. Yaxşı xidmət edib. Xidmət yoldaşları da, onunla döyüşənlər də deyirlər ki, Taleh igid döyüşçüydü, mərd oğlanıydı. Ağdamın ağır günlərində Vətən naminə daha cəsarətlə döyüşüb.



Mərzili uğrunda gedən döyüşlərdə oğlum üstünə ələnən güllələrə məhəl qoymadan yaralanmış komandirini döyüşdən çıxardıb. Sonra yenidən döyüşə qoşulub. Ağır döyüşlərdə sol çiynindən yaralanıb. Sonrakı taleyindən xəbərsizik. Bu günəcən dəqiq məlumatımız yoxdu...

Ağır dərddi. Məzarı olsaydı, oğul əvəzi baş daşına baş qoyub ürəyimi boşaldardım. Oğlum itkindi. Prezidentimiz torpaq uğrunda döyüşənləri unutmur, onlara da, ailələrinə də həmişə ehtiram göstərir. Ölkə başçısının bu günlərdə imzaladığı fərman da bunun təsdiqidir. Mən itkin əsgər anası kimi cənab İlham Əliyevə bu mənəvi və maddi dəstəyə görə minnətdarlığımı bildirirəm. Oğul itirən anaların dərdi torpaqlarımız işğaldan azad ediləndə yumşalacaq. İnanıram ki, Prezidentimizin sərkərdəliyiylə əsgərlərimiz buna nail olacaqlar.

**Gülnaz MEHDİYEVA,**
**Bakı şəhəri, Nizami rayonu Bəhlul Nağıyev küçəsi 57, mənzil 35**

Qardaşım Yadigar Rüstəmov 1976-cı il oktyabrın 6-da Bakı şəhəri Qaradağ rayonunun Sahil qəsəbəsində dünyaya gəlib. Elxan Süleymanov adına 253 nömrəli orta məktəbin şagirdi olan Yadigara yaşıdları kimi orta məktəbi bitirmək və son zəngin sevincini yaşamaq nəsib olmadı. Orta məktəbin son illərini Qarabağda - döyüşlərdə keçirdi. Bəzən evə, valideynlərinə baş çəkirdi - onu döyüşlərdən saxlamaq mümkün deyildi. Evdə otura bilmirdi. Elə bil onu hansısa bir qüvvə döyüşlərə çəkirdi. 1993-cü il aprelin 2-də Ağdərə uğrunda gedən döyüşlərdə həlak oldu. Döyüş yoldaşlarının dediyinə görə, onların yaxınlığına mərmi düşüb, qəlpələrdən biri Yadigarın həyatına son qoyub. Onu xəstəxanaya çatdırmaq mümkün olmayıb. Dünyasını dəyişib. Aprelin 4-də Şəhidlər xiyabanında komandiri Azərbaycanın Milli Qəhrəmanı Vəzir Orucovla bir sırada dəfn edildi.

Yadigar yaddaşların yadigarına çevrildi. Sahil qəsəbəsində büstü ucaldıldı. Şəhidlər xiyabanında, büstünün qarşısında dayananda düşündüm ki, hər kəsə şəhidlik nəsib olmur. İlboyu Şəhidlər xiyabanını ziyarətlər, qardaşım da daxil olmaqla, bütün şəhidlərimizin anılması, yada salınması şəhid bacısı kimi mənə toxtaqlıq verir, sakitləşdirir. Eyni zamanda, ən böyük təsəllim qardaşımın mənə şəhid bacısı adını miras qoymasıdı.

Digər böyük təsəllim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan əsgerinə, döyüşçüsünə, şəhidinə, qazisinə, eyni zamanda onların ailə üzvlərinə göstərdiyi dövlət qayğısıdır.



Onun sayəsində hər bir vətəndaşın, imtiyazlı təbəqənin dövlət və xalq qarşısında xidmətləri daim diqqət mərkəzində saxlanılır. Hər bir vətəndaşa göstərilən diqqət və qayğıya, Azərbaycan xalqına göstərilən xidmətə görə ölkə Prezidentinə təşəkkür edirəm. Azərbaycan xalqı gördü ki, Prezidentimiz şəhidlərə və onların ailə üzvlərinə böyük qiymət verir. Prezidentimizin səlahiyyətlərini icra etməyə başladıqdan sonra belə bir fərman imzalaması torpaqlarımız uğrunda canından keçən bütün şəhidlərimizə verilən qiymətdir. Bu fərman, həmçinin dövlət başçısı İlham Əliyevin vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün canlarını qurban vermiş hərbçilərimizin ailələrinə diqqət və qayğısının bariz nümunəsidir. Bu gün mən fəxr edirəm ki, Azərbaycan dövlətinin vətəndaşıyam, qardaşım Yadigar Rüstəmov Vətən, dövlət, torpaq uğrunda şəhid olub. Qürur duyuram ki, Prezidentimiz İlham Əliyevdi və onun yürütdüyü siyasətin mərkəzində, özünün də qeyd etdiyi kimi, Azərbaycan vətəndaşı dayanır.

Vətən uğrunda canından keçən şəhid övladlarını, şəhid ailələrini, şəhid analarını, atalarını, qardaşlarını, bacılarını diqqətdən kənar qoymayan Prezidentimizə minnətdarlığımı bildirirəm. Sizin şəhid ailələrinə olan diqqətinizi görmək, qayğınızı duymaq bir şəhid bacısı kimi məni çox qürurlandırır. Çox sağ olun, cənab Prezident!

**İradə RÜSTƏMOVA,**
**Qaradağ rayonu, Sahil qəsəbəsi, Məhərrəm Seyidov küçəsi 16, mənzil 56**

Oğlum Zaur Ramazanov 24 dekabr 1969-cu ildə Bakı şəhərinin Nizami rayonunda anadan olmuşdu. 250 nömrəli məktəbdə təhsil almışdı. Moskva şəhərində müddətli həqiqi hərbi xidmətini yerinə yetirmişdi. 1992-ci ilin dekabrında könüllü olaraq Vətənin müdafiəsinə getmişdi. 1993-cü ilin yanvarında Ağdam rayonunun Sırxavənd uğrunda gedən döyüşlərdə itkin düşdü.

75 yaşım var. Bu gün də deyirəm ki, dünyada Vətəndən şirin nemət yoxdur. Övladlarımızı da belə tərbiyə etmişik. Üç oğlum Qarabağ uğrunda gedən döyüşlərdə vuruşub. Böyük oğlum Çingiz əsgərliyini keçmiş Sovet ordusunda çəkib. Çernobıl əlili olsa da könüllü qatılmışdı ordu sıralarına. Şuşada vuruşub. Zaur da könüllü idi. Nazimin 18 yaşı tamam olanda ona da çağırış vərəqəsi gəldi. O, Ağdamda Sırxavənddə vuruşurdu. İki qardaşın biri-birindən xəbəri olmayıb. Qardaşı gedib Nazimə deymişdi, Zauru isə...

Nə Böyük Vətən müharibəsində itkin düşən atasının, nə



də oğlu Zaurun məzarına sarıla bilməyən atası Əli üçün dünyada Vətəndən əziz məfhum yox idi. Daim deyərdi: "Vətənə sevgi imandandır. Vətən torpağı səcdəgahdır, toxunulmazdır, müqəddəsdir". Övladlarını da bu amalla böyütmüşdü.

Zaur çox vətənpərvər idi. Vətənimizin başının üstünü qara buludlar alanda, məkirli qonşularımız torpaqlarımızı işğal edəndə rahatlıq tapa bilmirdi. Ürəyi Qarabağda idi. Daim deyirdi ki, Vətəni sən, mən qorumasaq, kim qoruyacaq. Zaurumun adını daşıyan nəvəm üçüncü sinifdə oxuyur, əsgər olacağı günü səbirsizliklə gözləyir...

Ordumuzun, igid oğullarımızın qazandığı xalqımıza belə bir sevinc yaşatdığı aprel zəfərindən sonra işğal altında olan torpaqlarımıza, Qarabağımıza qovuşacağımıza inamımız daha da artıb.

Əllərim oğlumun saçlarını sığallamaq üçün, qollarım boynuna dolanmaq üçün, səsini duymaq üçün darıxıb... Dövlət başçımız bu özləmi, bu həsrəti çəkənlərə çox duyğusal qayğı göstərir. Bu qayğı təsəllimiz olur. Diqqətini, qayğısını hər an hiss etdiyimiz ölkə rəhbərimiz şəhid ailələrinin bütün problemlərinin həllinə köməklik göstərir.

Respublikamızda şəhidlərimizin adı, xatirələri əbədiləşdirilir. Şəhid ailələrinə dövlətimizin köməyi və yardımı getdikcə daha da artır. Bu gün mən bir şəhid anası olaraq əminliklə deyə bilərəm ki, dövlətimizin qayğısını, dövlət başçımızın diqqətini hər an öz üzərlərimizdə hiss edirik. Bu fərmana görə ölkə Prezidentinə dərin minnətdarlığımı bildirirəm.

**Dilbər RAMAZANOVA,**
**Bakı şəhəri, Nizami rayonu, Bəhruz Nuriyev küçəsi 67, mənzil 38**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə Nazirliyinin BƏYANATI

Ermənistanda hakimiyyəti sona çatmış qanlı və cinayətkar rejimin tərəfdarlarının qoşunların təmas xəttində vəziyyəti gərginləşdirmək məqsədilə müxtəlif təxribatlara cəhd göstərəcəkləri istisna edilmir.

Bununla əlaqədar bildiririk ki, bütün cəbhəboyu zonada əməliyyat şəraiti qoşunlarımızın tam nəzarəti altındadır, bölmələrimiz atəşkəs rejiminə ciddi riayət edir, gərginliyin artmasının tərəfdarı deyilik və cəbhə xəttində Müdafiə Nazirliyi tərəfindən heç bir hərbi texnikanın cəmləşməsi həyata keçirilmir.

Bəyan edirik ki, qoşunların təmas xəttində vəziyyətin kəskinləşməsinə yönələn istənilən düşmən təxribatının qarşısı dərhal, qətiyyətlə və sərt şəkildə alınacaqdır.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*24 aprel 2018-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 113 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım kəndlərində, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Qaralar kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan və Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Cəbhə bölgəsində əsgərlərlə görüş təşkil olunub



Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Qaradağ rayon filialının fəal üzvləri, ARDNŞ-a məxsus BOS Şelf MMC-nin əməkdaşları, eləcə də müəssisədə çalışan bir qrup müharibə əlillərindən ibarət nümayəndə heyəti cəbhə bölgəsində yerləşən hərbi hissədə əsgərlərlə görüşüb.

Şəxsi heyət qarşısında çıxış edən qonaqlar torpaqlarımızın keşiyində dayanan, düşmənə layiqli zərbə vurmağa qadir olan Azərbaycan əsgərinin işğal altında olan torpaqlarımızı tezliklə azad edəcəklərinə əmin olduqlarını bildiriblər.

Hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi tərəfindən təsis olunan "Vətən naminə" medalı ilə təltif edilib və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Ermənistan mətbuatında təmas xəttində Azərbaycan Ordusunun aktiv hərəkəti barədə yayılan məlumatlar təxribat xarakterlidir"

*Müdafiə Nazirliyinin mətbuat xidməti Ermənistan mətbuatında guya qoşunların təmas xəttinə yaxın ərazilərdə Azərbaycan Ordusunun canlı qüvvə və döyüş texnikasının aktiv hərəkəti barədə yayılan məlumatla bağlı AZƏRTAC-ın sorğusunu cavablandırıb.*

Nazirliyin məlumatında bildirilib: "Son günlər Ermənistanda güclənən kütləvi xalq etirazlarından ictimaiyyətin diqqətini yayındırmaq məqsədilə kriminal hərbi-siyasi rejim bu cür çirkin yalan və təxribat xarakterli müxtəlif məlumatlar yayır".

# "İşğalın sonuna az qalıb, Vətən!"





(Əvvəli 1-ci səhifədə)

"Vətənə xidmət etmək hər birimizin həm vətəndaşlıq, həm də övladlıq borcudur", - deyə Yardımlı rayonundan ordu sıralarına çağırılmış əsgər Səccad Qaraşlı söhbətə başlayır. - Qürur duyuram ki, bu müqəddəs borcu düşmənlə üzbəüz mövqelərdə yerinə yetirirəm. Döyüş növbətçiliyini ayıq-sayıq aparırıq. Hər hansı bir dəyişiklik müşahidə olunarsa, bu barədə taqım komandirinə məlumat çatdırırıq. Postda dayanıb qarşı tərəfi müşahidə etdikcə, fikirləşirəm: görəsən, nə vaxt düşmən dərk edəcək ki, qarşısında dayanan məğrur Azərbaycan əsgəri gec-tez onu tarixi torpaqlarımızdan qovacaq. Axı onların bizim torpaqlarımızda nə işləri var? Məgər onları torpaqlarımızdan çıxarmağın vaxtı çatmayıb? Çatıb. Az qalır. İnanıram ki, Ali Baş Komandanın əmri ilə düşməni məhv edib, Qarabağda üçrəngli bayrağımızı dalğalandıracağımız günlər çox uzaq deyil.

Heyət nəfəri əsgər Akif Akifzadə hərbi xidmətə Astara rayonundan çağırılıb. O deyir ki, hərbi kişilik məktəbidir. "Çalışıram ki, bu məktəbin sınağından uğurla keçim, valideynlərimin, doğmalarımın, dostlarımın yanına alnıaçıq, başıuca qayıdım. Bu gün müxtəlif silahlardan bacarıqla istifadə edib, hədəfləri dəqiq vururam. Öyrəndiklərimə görə komandir heyətimə minnətdaram. Fəxr edirəm ki, bu gün Vətənin keşiyindəyəm. Xidmətdə olduğum bu günlər ömür kitabımın səhifələrinə böyük hərflərlə yazılacaq. Hələ xidmətimin xeyli hissəsi qarşıdadır. Çalışacağam ki, silahların sirlərini dərindən öyrənim, xidmətdə daha böyük uğurlar qazanım."

Sabunçu rayonundan xidmətə çağırılan əsgər Murad Babayev isə bildirir ki, ordu mühiti başqa dünyadır. "İnsan burada yorulmur. İlk vaxtlar darıxa bilərsən, amma zaman keçdikcə əsgər yoldaşlarından ayrılmaq istəmirsən. Sən burada olanda doğmalarının güvəndə olduğuna əmin olursan. Mən indi rahatam. Çünki nə təhlükə gəlsə, biz onu dəf etməyə hazırıq. Yetər ki, anama - Vətənimə heç nə olmasın."

Torpaqlarımızın keşiyində dayanan əsgərlərdən Rafael Qafarov, Murad Heydərli, Telman Yusubov, Yaşar İsrafilov, Yasəf Nərimanov və başqalarının da hər sözündən, söhbətindən vətənpərvərlik ruhu hiss edilirdi. Hamısı bildirdilər ki, Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı yağılardan azad edib, üçrəngli bayrağımızı torpaqlarımızda dalğalandırmağa tam hazırıq.

Döyüşçülərlə söhbətdən sonra bir daha əmin oluram ki, Vətən qarşısında məsuliyyətini dərindən hiss edən gənclərimiz yurdumuzun keşiyində ayıq-sayıq dayanıblar. Onlar torpaqlarımızın hər qarışı uğrunda döyüşə hazırdırlar.

...Əsgərlərin baxışları deyir ki, işğalın sonuna az qalıb, Vətən!...

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

# Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun xatirəsi anılıb

*Şəmkir rayonundakı "N" hərbi hissəsində Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun xatirəsinə həsr olunan anım mərasimi keçirilib.*






Əvvəlcə mərasim iştirakçıları ümummilli lider Heydər Əliyevin, eləcə də Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda həlak olan şəhidlərimizin xatirəsini yad ediblər.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Sona Əliyeva, Şəmkir rayon İcra Hakimiyyəti başçısının müavini Aynur Abdullayeva, hərbi hissənin zabiti polkovnik Rasim Manafov və digərləri İsgəndər Aznaurovun həyat və döyüş yolu barədə ətraflı məlumat veriblər.

Qeyd olunub ki, İsgəndər Aznaurov 1956-cı il avqustun 16-da Özbəkistan Respublikasının Buxara vilayətində anadan olub. 1980-cı illərin sonlarında Fərqanədə milli zəmində baş verən məlum hadisələrdən sonra bir çox axıska türk ailəsi kimi onların ailələri də Azərbaycana pənah gətirib və Şəmkir rayonunun Kür qəsəbəsində məskunlaşıblar. 1992-ci ildən Azərbaycan Ordusunda könüllü olaraq zabit kimi xidmət edən İsgəndər Aznaurov Gədəbəy rayonunun Şınıx bölgəsində erməni quldur dəstələrinə qarşı mərdliklə vuruşub, Mutludərə, Ər dağı, Ləzgi daşı və digər strateji yüksəkliklərdə şəxsi şücaət nümunələri göstərib.

1993-cü ilin baharında şəhid olan İsgəndər Aznaurova ulu öndərimiz Heydər Əliyevin Fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verilib.

Dövlətimiz İsgəndər Aznaurovun xidmətlərini yüksək qiymətləndirib. İndi onun adına yaşayış məntəqəsi, küçə və məktəb var. Vaxtilə döyüşdüyü səngər bu gün "İsgəndər qalası" adlanır və igid oğullarımız bu qalanın keşiyində ayıq-sayıq dayanaraq düşmən hücumlarının qarşısını mərdliklə alırlar.

Mərasimdə Kür qəsəbəsinin Mədəniyyət Evinin kollektivinin və orta məktəb şagirdlərinin birgə hazırladıqları kompozisiya və Nizami Abbasın rejissoru olduğu "İsgəndər sorağında" adlı sənədli filmi təqdim olunub.

Sonda Milli Qəhrəmanın həyat yoldaşı Gülxanım Aznaurova çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına öz təşəkkürünü bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# İkinci Dünya müharibəsinin iştirakçılarına birdəfəlik maddi yardımın verilməsi ilə bağlı Sərəncam imzalanıb

*Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi ilə bağlı Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına 1000 manat, həmin müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, müharibə illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Bu məqsədlə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 5,9 milyon manat ayrılıb.

# Cümhuriyyət generalının abidəsi önündə abadlıq işləri aparılıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar sərəncamından irəli gələn vəzifələr həyata keçirilməkdədir. 2018-ci il cümhuriyyət ili elan olunub. Bununla bağlı Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, cümhuriyyət xadimlərinin, generallarının qəbirüstü abidələri abadlaşdırılır.

Bu günlərdə Yasamal rayonundakı qəbiristanlıqda dəfn olunan görkəmli hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi nazirinin müavini, tam artilleriya generalı Əlağa Şıxlinskinin məzarı önündə də abadlıq işləri aparılıb. Görkəmli cümhuriyyət generalının dəfn olunduğu ərazi, məzarütsü abidəsi səliqəyə salınıb, ətrafında ağaclar əkilib, gül ləkləri, yaşıllıqlar düzəldilib.

Bu, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yaradılmasında, formalaşmasında, Bakının bolşevik-daşnak hərbi birləşmələrindən azad edilməsində əvəzsiz xidmətləri olan tam artilleriya generalı Əlağa Şıxlinskiyə ehtiramın təzahürüdür.

**"Azərbaycan Ordusu"**

# "Düşmənin təxribatına qarşı müvafiq tədbirlər görüləcək"

Ermənistan mətbuatında qoşunların təmas xəttinə yaxın ərazilərdə guya Azərbaycan Ordusunun canlı qüvvəsinin və döyüş texnikasının cəmləşməsi ilə əlaqədar yayılan video ilə bağlı Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər: "Ermənistan mətbuatının qoşunların təmas xəttinə yaxın ərazilərdə guya Azərbaycan Ordusunun canlı qüvvə və hərbi texnikasının cəmləşməsi ilə əlaqədar yaydığı video növbəti təxribatdır. Nümayiş etdirilən kadrlar Azərbaycan Ordusunun planlı surətdə keçirdiyi təlimlərdə qoşunların yerdəyişməsi zamanı uzaq məsafədən və müxtəlif rakurslardan çəkilərək montaj edilib.

Ermənistandakı kütləvi etirazlardan ciddi narahatlıq keçirən hərbi-siyasi rejim bu cür təxribat xarakterli xəbərləri yaymaqla öz xalqını qorxu içində saxlamaqda davam edir.

Müdafiə Nazirliyi bildirir ki, baş verə biləcək təxribatlara qarşı müvafiq tədbirlər görüləcək".

# NATO PA-nın "Rouz-Rout" seminarında təhlükəsizlik məsələləri diqqət mərkəzində olub

*NATO PA-nın aprelin 23-də Batumidə keçirilən 97-ci "Rouz-Rout" seminarında Cənubi Qafqazda və Qara dəniz regionunda təhlükəsizlik məsələləri diqqət mərkəzində olub.*

AZƏRTAC xəbər verir ki, Oksford Universitetinin beynəlxalq münasibətlər üzrə professoru Poy Elison, Vilfrid Martens Avropa Təhsil Mərkəzinin direktor müavini Roland Freddensteyn seminarda mövzu ilə əlaqədar çıxış ediblər. Çıxışlarda Cənubi Qafqazda və Qara dəniz hövzəsində təhlükəsizliyin təmin olunmasının, mövcud münaqişələrin həllinin vacibliyi qeyd edilib. Alimlər NATO və digər beynəlxalq təşkilatları bu istiqamətdə səyləri artırmağa çağırıblar.

Milli dəyərlərin və perspektivlərin müzakirəsinə həsr olunmuş hissədə Gürcüstanın xarici işlər nazirinin müavini David Dondu, Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, Bolqarıstanın səfiri Dizelava İvanova-Kozleva, Ukraynanın səfiri İqor Dolqov çıxış edərək məsələ ilə bağlı fikirlərini bölüşüblər.

Çıxışlarda Gürcüstanın Avratlantik məkana inteqrasiyası dəstəklənib. Bildirilib ki, Gürcüstanın NATO-ya üzvlüyü təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayacaq.

# Azərbaycan HDQ-nin nümayəndə heyəti Tehrana səfər edib

Hərbi Dəniz Qüvvələri komandanı vəzifəsini icra edən 1-ci dərəcəli kapitan Zaur Hümmətovun rəhbərlik etdiyi nümayəndə heyəti Tehran şəhərində keçirilən Hind okeanı sahili ölkələrinin Hərbi Dəniz Qüvvələrinin 6-cı simpoziumunda iştirak edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aprelin 25-dək davam edəcək simpoziumda dünyanın 35 ölkəsini təmsil edən donanma komandanları tərəfindən dəniz təhlükəsizliyi sahəsində əməkdaşlıq, regional dəniz problemləri və üzv dövlətlər arasında əlaqələrin daha da genişləndirilməsi məsələləri müzakirə olunacaqdır.

Azərbaycan nümayəndə heyəti, həmçinin simpoziumla eyni vaxtda təşkil olunan Xəzəryanı ölkələrin Hərbi Dəniz Qüvvələrinin komandanlarının 3-cü iclasında da iştirak edəcəkdir. İclasda regional təhlükəsizliyin təmin edilməsi sahəsində qarşılıqlı fəaliyyətlərə dair fikir mübadiləsi aparılacaq.

# “Həyatda qəhrəmanlığa həmişə yer var”



Qəhrəman aprel döyüşçüləri düşmən üzərində böyük qələbənin başlanğıcı olmaqla bərabər, xalqımızın öz ordusuna inamını, vətənpərvərlik hissini daha da gücləndirdi. Azərbaycan Ordusunun gücünü həm hərbi peşəkarlıq, həm də qəhrəmanlıq tərəfdən göstərdi. Elə qəhrəmanlıq ki, hər biri gələcək nəsillərə örnək və nümunədir. Ümummilli liderimiz Heydər Əliyevin bir kəlamını xatırlatmaq istəyirəm: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Aprelin 20-də Müdafiə Nazirliyinin Həzi Aslanov adına Mərkəzi Zabitlər Evi və Bakı şəhəri Nəriman Nərimanov adına 45 nömrəli tam orta məktəbin təşkilatçılığı ilə həmin təhsil ocağında belə qəhrəmanlardan biri şəhid polkovnik-leytenant Sənan Axundovun anım günü keçirildi. "Həyatda qəhrəmanlığa həmişə yer var" adı altında keçirilən tədbirdə millət vəkili Məlahət İbrahimqızı, aprel döyüşlərində xüsusi xidmətləri olan hərbçilər, Bakı şəhər Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva, Milli Qəhrəman Zabit Quliyev, Nərimanov rayon İcra Hakimiyyətinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri, müəllimlər və şagirdlər iştirak edirdilər.

Öncə qonaqlar məktəbin foyesində şəhidin xatirəsinə həsr olunmuş foto-şəkillərdən ibarət sərgi ilə tanış oldular. Bildirildi ki, Azərbaycan Hərb Tarixi Muzeyində polkovnik-leytenant Sənan Axundovun xatirəsinə həsr olunmuş guşə var və şəhidin daşıdığı mundir, həmçinin digər dəyərli əşyaları orada sərgilənir.

Tədbirin bədii hissəsi ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başladı. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri açıq elan edən Nəriman Nərimanov adına 45 nömrəli tam orta məktəbin direktoru, şəhid polkovnik-leytenant Sənan Axundovun həyat yoldaşı Nəcibə Axundova qəhrəmanın həyat yolu haqqında məlumat verdi. Bildirdi ki, Sənan hələ 13 yaşında doğma torpaqlarından didərgin düşməklə həyatın boz üzünü, xatirələrin acısını yaşamışdı. “Canından da çox sevdiyi Qarabağı düşmən tapdağından azad etmək, xalqımıza qarşı törədilən bu qırğınların qisasın almaq onun həyat amalına çevrilmişdi. Hərbçi peşəsini də elə bu səbəbdən seçmişdi.” Çıxışına davam edən Nəcibə xanım bildirdi ki, Sənan gözəl ailə başçısı olmaqla yanaşı, savad və geniş potensiala malik zabit idi: "O, 2001-ci ildə Ali Hərbi Dənizçilik Məktəbini, 2008-ci ildə Almaniya Federativ Respublikasında Almaniya Silahlı Qüvvələrinin Hərbi Akademiyasını, 2009-cu ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini ikinci ixtisas olaraq bitirmişdi". Natiq qeyd etdi ki, daim peşəkar işi və səriştəsi ilə rəhbərliyin böyük etimadını qazanmışdı: "Təsadüfi deyil ki, hərbi fəaliyyəti zamanı xidməti vəzifələrini və qarşıya qoyulmuş tapşırıqlarının yerinə yetirilməsində, döyüş hazırlığının yüksəldilməsində, hərbi nizam-intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən dəfələrlə fəxri fərman və medallarla təltif olunmuşdu.”

Məktəb direktoru onu da vurğuladı ki, iki azyaşlı övlad atası olan Sənan, dövlətə və azərbaycançılığa sadiq, Vətənini canı qədər sevən zabit kimi tapşırılan işlərə ciddi və məsuliyyətlə yanaşırdı. "Sənan da torpaqlarımızın işğaldan azad edilməsini arzulayırdı və istəyirdi ki, övladlarının toyunu Şuşada - Cıdır düzündə etsin", - deyə şəhidin həyat yoldaşı qəhərə qarışıq qürurla oğlu Tahirdən söhbət açdı: "Atasının büküldüyü Azərbaycan bayrağını rəşadətlə daşıyan Tahir də atasının yolunu davam etdirib hərbi həkim olmaq istəyir".



Çıxış edən millət vəkili Məlahət İbrahimqızı bildirdi ki, aprel döyüşçüləri Azərbaycan xalqının qəlbində ümid və zəfər işığı yandırdı: “Məhz onlar 2000 hektardan artıq ərazini azad etməklə neçə-neçə insanın ürəyində bir dərd olaraq qalmış nisgili yox etdilər. Aprel döyüşləri bizləri Qarabağa səsləyən növbəti qələbələrin müjdəçisidir”, - deyən natiq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin aprel döyüşlərinə xüsusi önəm verməsindən söhbət açdı və "Aprel döyüşləri bizim şanlı qələbəmizdir" sitatının bu qələbələrin davamlı olacağına, bir qarış torpağımızın belə düşməndə qalmayacağına bir siqnal olmasını qeyd etdi.

- Şəhidlik adi ölüm deyil, Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, sənə verilmiş ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaq deməkdir, - deyə çıxışına başlayan Bakı şəhər Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva qeyd etdi ki, Vətənimizin müdafiəsinə hər an hazır olan gənclər yetişdirmək, onlara hərbi vətənpərvərlik ruhunu aşılamaq əsas vəzifəmizdir: "Belə tədbirlərin keçirilməsi ümumtəhsil müəssisələrində aparılan tərbiyəvi işin ana xəttidir. Heç şübhəsiz, vətəndaşlıq mövqeyi Vətən sevgisindən, torpaq sevgisindən başlayır. Biz xoşbəxt xalqıq ki, öz şagirdlərimizdə, övladlarımızda Vətən sevgisini başqa millətlərin nümunəsində tərbiyə etmirik, bizim özümüzün zəngin tariximiz var. Məhz qəhrəmanlarımızın nümunəsində onları tərbiyə edirik. Bugünkü tədbir şəhidlərimizin əziz xatirəsini yad etməklə yanaşı, gənc nəslə Vətən sevgisinin nədən ibarət olduğunu və o sevginin necə özünü büruzə verdiyini aşılamaqdan ibarətdir”. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində tikilən orta məktəbdə 24 ildən sonra çalınan məktəb zənginə diqqət çəkən Məhəbbət xanım bunu mühüm tarixi hadisə adlandırdı və buna görə Prezident İlham Əliyevə, bütün Azərbaycan Ordusuna öz minnətdarlığını bildirdi.

Anım mərasimində məktəbin 6-cı sinif şagirdləri tərəfindən ədəbi-bədii kompozisiya nümayiş olundu. Müdafiə Nazirliyinin Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təqdim etdiyi "Biz Qarabağa qayıdacağıq" adlı kompozisiya və şəhid Sənan Axundovun həyatından bəhs edən videoçarx iştirakçıların marağına səbəb oldu.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Aprel döyüşləri - böyük qələbənin addım səsləri

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin böyük səyləri nəticəsində son illər respublikamızın müdafiə qabiliyyəti durmadan artır. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü ordularından birinə çevrilmişdir. İki il bundan öncə Azərbaycan əsgərinin şücaəti, şanlı zəfəri sayəsində tariximizə qızıl hərflərlə yazılan aprel döyüşləri də buna bariz nümunədir. Xalqımız bu tarixi qürurla anır, qəhrəman oğullarımızı fərəhlə yad edir. Çünki bu qələbə bizləri Qarabağa səsləyən növbəti Böyük qələbələrin müjdəçisi oldu. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışında aprel döyüşlərinə xüsusi önəm verərək, onu şanlı tariximiz adlandırdı.



İki il öncə Azərbaycan Ordusu qəsbkar erməni hərbi birləşmələrinin təxribat xarakterli hərəkətlərinə layiqli cavab verərək, düşmənə sarsıdıcı zərbələr vurdu. Azərbaycan Ordusunun birləşmələri Talış kəndi ətrafındakı yüksəklikləri azad edərək, Füzuli rayonu istiqamətində yerləşən və son dərəcə mühüm əhəmiyyətə malik olan "Lələtəpə" adlandırılan yüksəkliyə nəzarəti bərpa etdilər. Döyüşlər zamanı xalqımızın neçə-neçə igid övladı canından keçdi. Şəhidlik zirvəsinə ucaldılar onlar. Qəhrəmanlıq haqqında belə bir deyim var: "Anadan olanda heç kim dünyaya qəhrəman kimi gəlmir. Qəhrəmanlar döyüşdə doğulur". Bu baxımdan 2016-cı ilin aprelində Azərbaycanın növbəti qəhrəmanları doğuldular. Düşmən ordusuna layiqli cavab verən əsgər və zabitlərimiz torpaqlarımızın sahibsiz olmadığını bir daha sübut etdilər.

Aprel zəfərinə musiqilər bəstələndi, ədəbi nümunələr yazıldı, bir sözlə, ordumuzun bu qələbəsi qəhrəmanlıq salnaməsinə çevrildi.

Aprel döyüşləri zamanı torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi əziz tutulur, kinofilmlər çəkilir, kitablar yazılır, ədəbi-bədii gecələr keçirilir, idman turnirləri təşkil olunur. Belə yarışlardan biri də bu günlərdə Bakı şəhər Gənclər və İdman Baş İdarəsi və Sindo-Ryu və Pençak-Silat Federasiyası tərəfindən keçirilib. Aprel şəhidlərinin xatirəsinə həsr olunmuş bu turnirdə ziyalılar, media nümayəndələri, idmançılar, Qarabağ müharibəsinin qaziləri, ehtiyatda olan zabitlər - Kamil Baxşəliyev, Rəşid Əliyev, döyüşçülərdən Mahir Rzayev, Kəmalə Əliyeva, aprel döyüşlərinin qaziləri - zabitlər Həsrət Almaslı, Azər Məmmədov, Gündüz Fərhadov, Səməndər Mənəfov, Anar Məmmədov, Hikmət Məmmədov, Kamil Musavi, döyüşçülər Eşqin Hüseynov, Əhliyyat Mehdiyev, Fəzail Quliyev, Elşad Həşimov, Ağasəmi Şahgəldiyev, Elşən Cəbiyev, Ramil Əliyev, Müzəffər Bahadurov, Elşən Əzimov, Asim Əliyev, İlkin Abbasov, Ruslan Fəzazadə, Elməddin Rüstəmov, Rəcəb İbrahimov və başqaları iştirak etdilər.

Xatirə turnirində ən güclü idmançılar birincilik uğrunda mübarizə apardılar. Federasiya idmançılarının nümunəvi çıxışları isə turnirə xüsusi rəng qatdı. Turnirdə Bakı şəhər Gənclər və İdman Baş İdarəsi və Sindo-Ryu və Pençak-Silat Federasiyası adından Federasiyanın Prezidenti, baş məşqçi Abbas Hümbətov Qarabağ müharibəsi və aprel döyüşlərinin iştirakçılarına, qazilərinə diplom və hədiyyələr təqdim etdi.

A.Hümbətov çıxış edərək bildirdi ki, aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnamələrindən biridir və sözsüz ki, Azərbaycan Ordusunun əldə etdiyi bu uğurların arxasında ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin gərgin əməyi və davamlı qayğısı dayanır. Odur ki, gecə-gündüz əldə silah yurdumuzun keşiyində dayanan hərbçilərimiz şəxsən Ali Baş Komandanın və xalqımızın etimadını doğrultmaq üçün bu gün də əlindən gələni edir, ölkənin işıqlı sabahı və bütövlüyü naminə öz döyüş hazırlıqlarını daim artırırlar.

Biz əminliklə deyə bilərik ki, bu günlərdə il dönümünü qeyd etdiyimiz aprel döyüşləri və bu döyüşlərdəki tarixi qələbəmiz Azərbaycan Ordusunun düşmən üzərində böyük zəfərinin ilk addım səsləri oldu.

**Məryəm MƏHƏRRƏMOVA**

# Aprel döyüşlərinə həsr edilmiş “Ordumuzun zəfəri” adlı tədbir keçirilib





*Heydər Əliyev adına Hərbi Liseyin və Naxçıvan qarnizonu tam orta məktəbinin təşkilatçılığı ilə aprel döyüşlərinin ikinci ildönümünə həsr olunmuş tədbir keçirilib.*

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra ümummilli lider Heydər Əliyevin və vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi general-mayor Elman Orucov çıxış edərək bildirib ki, 2016-cı ilin aprelində keçirilən uğurlu əks-həmlə hərbi əməliyyatlarında Azərbaycan Ordusunun şəxsi heyəti rəşadət göstərdi. Bu döyüşlərdə Ermənistan silahlı qüvvələri böyük itkilərə məruz qaldı. 2000 hektardan artıq ərazi azad edildi, daha çox ərazi əməliyyat baxımından ordumuzun nəzarəti altına keçdi.

Naxçıvan qarnizonu tam orta məktəbinin direktoru Natiq Əhmədov çıxışında vurğulayıb ki, bu əməliyyatda şəxsi heyətin yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olduğu təsdiqləndi.

Tədbirdə aprel döyüşlərinə həsr edilmiş video-slaydlara baxış olub.

Aprel şəhidlərindən mayor Rasim Məmmədovun və leytenant Qabil Orucəliyevin ailə üzvləri də tədbirdə iştirak ediblər. Mayor Rasim Məmmədovun həyat yoldaşı Samirə Məmmədova şəhidimizlə bağlı xatirələrini bölüşüb, oğlu Asim Məmmədov atasına həsr edilmiş şeiri səsləndirib.

Əsgər forması geyinmiş gələcəyin Vətən müdafiəçiləri vətənpərvərlik mövzusunda şeirlər səsləndirib, mahnılar ifa edib, səhnəciklər göstəriblər. Tədbirdə tamaşaçılar şagird və kursantların fəal iştirakını alqışlarla qarşılayıb.

Tədbir bir daha göstərdi ki, bu günün şagird və kursantı gələcəyin cəsur döyüşçüsü, yenilməz Vətən müdafiəçisidir.

**Leytenant Nəriman NƏCƏFOV,**
**fotolar**
**əsgər**
**Rauf ƏLƏSGƏROVUNDUR**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş Xocavənd yaşayış məntəqəsi istiqamətində yerləşdirilən düşmən ordusunun bölmələrindən birində bədbəxt hadisə baş verib. Nəticədə minaatan batareyasının əsgəri Karen Hakopyan müxtəlif bədən xəsarətləri ilə tibb məntəqəsinə aparılıb.

Qolu sınmış əsgərə tibbi yardım göstərən həkim Ş.Azaryan hərbi qulluqçu K.Hakopyanın xidmət yerinə qaytarılması barədə qərar verib.

Fakt əsgərin valideynlərindən və hərbi polisdən gizlədildiyindən araşdırma aparılmayıb.

* * *

Xnişinak yaşayış məntəqəsində yerləşən Ermənistan ordusunun bölmələrindən birində xidmət edən erməni əsgər Nairi Adalyanın çavuş kursuna göndərilməsinə razılıq verməsi üçün ondan 500 ABŞ dolları məbləğində pul alıblar.

Rusiya Federasiyasının Moskva şəhərində müvəqqəti yaşayan və hazırda Ermənistan ordusunda xidmət edən Nairi Adalyanın yaxınları faktla bağlı öz narazılıqlarını sosial şəbəkədə paylaşıblar.

* * *

İşğalçı Ermənistan ordusunun bölmələrindən birində xidmət edən hərbi qulluqçunun guya buraxılışdan qayıtmadığı barədə hərbi polisə məlumat verilib.

Araşdırma nəticəsində kəşfiyyat bölüyündə xidmət edən əsgər Artur Şahnazaryanın hərbi hissədəki dözülməz şəraitdən bezərək qaçdığı məlum olub.

Təhqirlərə məruz qalaraq xidmət yerini özbaşına tərk edən A.Şahnazaryanın geri qaytarılması məqsədilə tədbirlər görülür.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

# HP-7,62 pulemyotu



Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi tərəfindən istehsal olunan silahlardan biri də HP-7,62 hücum pulemyotudur. 7,62x54 mm çaplı HP-7,62 silahı ilk dəfə 2012-ci ilin sonunda ictimaiyyətə təqdim olunub. 2013-cü ildə isə beynəlxalq səviyyədə İDEF sərgisində nümayiş etdirilib. Mütəxəssislərin məlumatına görə, HP-7,62 pulemyotu öz texniki xüsusiyyətlərinə görə İsrail istehsalı olan "Negev NSG7" və "Belçikanın "FN Minimi 7,62 Mk.3" pulemyotu ilə rəqabət aparmağa qadirdir. Pulemyotun qundağı möhkəm alüminium ərintisindən hazırlanıb. Silahın üst və yan hissələrinə müxtəlif taktiki aksesuarlar əlavə etmək olar. Silahdan qısa (10 atış), uzun (30 atış) və fasiləsiz olaraq atəş açmaq olar. Pulemyotun çəkisi 8,2 kq, nişangah məsafəsi 1000 metr, qundağın açıq vəziyyətdə ümumi uzunluğu 1080 mm, atəş tezliyi dəqiqədə 650-750 atış, döyüş atəş tezliyi isə dəqiqədə 250 atışdır. Pulemyotdan ayaqüstə atəş açmaq üçün xüsusi qurluşa malik xəzinə və dayaq da hazırlanıb.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan və Ermənistan dövlət sərhədində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 25-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, onun səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və Saymon Tiller keçirəcəklər.

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ Yaponiyaya Çini üstələmək üçün yeni “görünməyən” qırıcı təklif edəcək



ABŞ-ın müdafiə sənayesi sahəsində tanınmış "Lockheed Martin" şirkəti Yaponiyaya gizlilik texnologiyası ilə təchiz edilən qırıcıların konstruksiyasını təklif etməyi planlaşdırır.

Yeni konstruksiyanın ixracı qadağan edilən "F-22 Raptor" və təkmilləşmiş "F-35 Lightning II" qırıcılarına oxşayacağı bildirilir.

Məlumatlara görə, məsələ artıq Yaponiya Müdafiə Nazirliyinin rəsmi nümayəndələri ilə müzakirə edilib. ABŞ hökuməti razılıq verdikdən sonra yapon tərəfinin sorğusuna əsasən (RFI) "görünməz" hərbi texnologiya bu ölkəyə təklif ediləcək.

Yüksək klassifikasiyalı və proqram təminatlı konstruksiyaların Çini üstələmək üçün Yaponiyaya verilməsi barədə qərar Prezident Donald Trampın ABŞ-ın silah ixracı siyasətini dəyişmək barədə vədini də yoxlamağa imkan yaradacaq.

Yeni təyyarə "F-22" və "F-35" qırıcılarının xüsusiyyətlərini özündə birləşdirərək onların hər ikisini üstələyəcək.

## Serj Sarkisyan istefa verib



Ermənistanın baş naziri Serj Sarkisyan istefa verib.

Bu barədə baş nazirin mətbuat xidməti məlumat yayıb.

Sizə dövlət başçısı kimi sonuncu dəfə müraciət edirəm. Nikol Paşinyan haqlı idi. Mən səhv etmişəm. Yaranmış vəziyyətdə bir neçə çıxış yolu var idi. Lakin mən onların heç birinə getmirəm. Mən ölkənin rəhbəri vəzifəsini tərk edirəm.

Xatırladaq ki, Sarkisyanın baş nazir seçilməsi əleyhinə etiraz aksiyaları aprelin 13-dən keçirilir.

## Kabildə ölənlərin sayı 55-i ötüb



Əfqanıstanın paytaxtı Kabildə seçicilərin qeydiyyat mərkəzinin qarşısında törədilən partlayış nəticəsində ölənlərin sayı 57 nəfərə çatıb.

Bu barədə "1TV" telekanalı Əfqanıstan Səhiyyə Nazirliyinə istinadən məlumat yayıb. Partlayış nəticəsində 119 nəfər yaralanıb.

Qeyd edək ki, Kabildə seçici qeydiyyat mərkəzi qarşısında terrorçu-kamikadze tərəfindən törədilən partlayışa görə məsuliyyəti İŞİD terror təşkilatı öz üzərinə götürüb.

## Şimali Koreya bütün nüvə və raket sınaqlarını dayandırıb



Koreya Xalq Demokratik Respublikasının (KXDR) lideri Kim Çen In ölkəsində nüvə və raket sınaqları aparılmasının dondurulduğunu və ölkənin şimalındakı nüvə poliqonunda işlərin dayandırıldığını elan edib. Bu barədə Cənubi Koreyanın Yonhap agentliyi məlumat yayıb.

"Aprelin 21-dən Şimali Koreya nüvə sınaqlarını və qitələrarası ballistik raketlərin buraxılışını dayandıracaq. ...KXDR sınaqların dayandırılmasına dair vədini təsdiq etmək üçün ölkənin şimalındakı nüvə sınağı poliqonunu bağlayacaq", - deyə agentlik Şimali Koreyanın Mərkəzi Teleqraf Agentliyinin məlumatını sitat gətirib.

Qərar KXDR-in hakim partiyasının mərkəzi komitəsinin cümə günü keçirilən iclasında qəbul olunub.

**AZƏRTAC-ın materialları əsasında**

# Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində kursantlar arasında beynəlxalq idman yarışları keçirildi

*Azərbaycan, Gürcüstan və Türkiyə Respublikalarının Müdafiə nazirlərinin imzaladığı "Azərbaycan-Türkiyə-Gürcüstan arasında hərbi əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na əsasən, aprelin 17-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Azərbaycan, Gürcüstan və Türkiyə Respublikalarının Hərbi Təhsil müəssisələrinin kursantları arasında keçirilən birinci idman yarışlarına start verildi.*

Tədbirdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Füzuli Salahov, Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Sarı Xəlilov, Türkiyə Respublikasının Hərbi attaşesi, briqada generalı general-mayor Zafər Ocak və digər qonaqlar iştirak edirdilər. Qonaqlar ilk öncə məktəbin həyətində ucaldılmış ulu öndər Heydər Əliyevin heykəli önünə gül dəstələri qoydular.




Tədbirdə ümummilli lider Heydər Əliyevin, həmçinin Azərbaycan, Gürcüstan və Türkiyə Respublikalarının ərazi bütövlüyü uğrunda şəhid olanların ruhları bir dəqiqəlik sükutla yad edildi. Hər üç respublikanın Dövlət himni səsləndirildi.

Tədbiri açıq elan edən general-mayor Füzuli Salahov qonaqları salamladı və onları ölkəmizdə görməkdən məmnunluq duyduğunu bildirdi. "Məktəbimizdə hər üç ölkənin hərbi təhsil müəssisələrinin kursantları arasında keçirilən beynəlxalq idman yarışlarına start verilməsi münasibətilə hər birinizi ürəkdən təbrik edir və "Azərbaycana xoş gəlmisiniz" deyirəm. Bildiyiniz kimi, burada keçirilən tədbir Azərbaycan, Gürcüstan və Türkiyə Respublikalarının Müdafiə nazirlərinin imzaladığı "Azərbaycan-Türkiyə-Gürcüstan arasında hərbi əməkdaşlıq haqqında Anlaşma Memorandumu" əsasında təşkil olunur. Memoranduma uyğun olaraq, hərbi təlim, hərbi təhsil, Kiber təhlükəsizlik, Müdafiə sənayesi və digər sahələrdə əməkdaşlıq nəzərdə tutulub. Ali Hərbi Məktəblər arasında keçirilən üçtərəfli idman tədbirləri də bu memorandumun bir hissəsidir. İdman tədbirinin yüksək səviyyədə keçirilməsi üçün məktəbimizdə hər cür şərait yaradılıb. İnanıram ki, hər bir komanda qalibiyyət uğrunda yüksək səviyyədə mübarizə aparacaq və dövlətini layiqincə təmsil edəcək."

Keçirilən tədbirin əhəmiyyətinə toxunan məktəb rəisi kursantlar arasında keçirilən birinci idman oyunlarının digər tədbirlər kimi ölkələrin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin inkişafına, əməkdaşlığın möhkəmləndirilməsinə, dostluq və rəqabət gücünün artırılmasına, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə xidmət etdiyini vurğuladı.

Dostluq və qardaşlıq mühitində keçirilən idman oyunları dörd gün davam etdi və iştirakçılar öz güclərini idmanın beş növündə - yüngül atletika, sərbəst güləş, voleybol, pentatlon və futbol üzrə yarışlarda sınadılar.

Yarışın birinci günündə estafet, 100 metr və 3000 metr məsafəyə qaçış üzrə yarışlar baş tutdu. Yüngül atletikanın bu növü üzrə komandaların mübarizəsindən sonra nəticələr elan olundu.

100 metr məsafəyə qaçış üzrə birinci yerə kursant Alı Əliyev (Azərbaycan), ikinci yerə kursant Nebihan Yavuz (Türkiyə), üçüncü yerə kursant Əvəz Əsgərov (Azərbaycan) layiq görüldülər.

Estafet qaçışı üzrə birinci yeri Türkiyə, ikinci yeri Azərbaycan komandası, üçüncü yeri Gürcüstan komandaları tutdular.

3000 metr məsafəyə qaçış üzrə birinci yerə kursant Vedat Erdemlig (Türkiyə), ikinci yerə kursant Caner Adıgüzelli (Türkiyə), üçüncü yerə kursant Pərvin Həziyev (Azərbaycan) layiq görüldülər.

Ümumi nəticələrə və ballara görə Türkiyə komandası yüngül atletika yarışlarının qalibi oldu.

Günün ikinci yarısında isə məktəbin idman zalında Azərbaycan və Türkiyə Respublikalarının kursantları arasında voleybol yarışı baş tutdu. Gərgin idman mübarizəsi şəraitində keçən oyunun sonunda Türkiyə komandası 3:2 hesabı ilə qələbə qazandı.

Yarışın ikinci günündə komandalar bir-birini sərbəst güləş üzrə sınağa çəkdilər. Dörd çəki dərəcəsində keçirilən yarışda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları daha çox fəallıq nümayiş etdirərək ən yüksək pilləyə yiyələndilər.

57 kq çəki dərəcəsində: birinci yer kursant İsa Şitiyev (Azərbaycan), ikinci yer kursant Laşa Kitesaşvili (Gürcüstan), üçüncü yer kursant Saz Muhammed Şamil (Türkiyə);

70 kq çəki dərəcəsində: birinci yer kursant Nəbi Muquşov (Azərbaycan), ikinci yer kursant Abdurahman Mutlu (Türkiyə);

85 kq çəki dərəcəsində: birinci yer kursant Aqşin Bədəlov (Azərbaycan), ikinci yer kursant Muhammed Ülger (Türkiyə);

97 kq çəki dərəcəsində: birinci yer kursant Qadir Əhmədov (Azərbaycan), ikinci yer kursant Kerim Ceylan (Türkiyə).

İdman oyunlarının üçüncü günündə komandalar pentatlon yarışlarında güclərini sınadılar.

Pentatlon yarışının nəticəsinə əsasən, birinci yeri kursant Onur Buldur (Türkiyə), ikinci yeri kursant Anar Hüseynov (Azərbaycan), üçüncü yeri kursant Ali Araydin (Türkiyə) tutdu. Ümumi hesabda isə Türkiyə komandası birinci oldu.

Yarışların son günündə futbol üzrə qarışıq komandalar tərkibində yoldaşlıq görüşü və idman yarışlarının bağlanış mərasimi keçirildi. Tədbir məktəbin idman sarayında baş tutdu. Mərasimdə bir sıra yüksək rütbəli zabitlər, həmçinin Türkiyə və Gürcüstan Respublikalarının Azərbaycandakı hərbi attaşeləri iştirak edirdilər.

Bağlanış mərasimində hər beş növ üzrə yarışların qalibləri ayrı-ayrılıqda elan olundu və yarışın ümumi nəticəsi haqqında tədbir iştirakçılarına məlumat verildi.

Keçirilən beş növ üzrə yarış nəticələrinə görə birinci yerə Türkiyənin, ikinci yerə Azərbaycanın, üçüncü yerə Gürcüstanın komanda heyətləri layiq görüldü. Nəticələrə əsasən, yarış iştirakçılarına kuboklar, medallar və fəxri fərmanlar təqdim edildi.

Mərasimdə məktəb rəisi general-mayor Füzuli Salahov çıxış edərək qalibləri bir daha təbrik etdi. "İlk dəfə kursantlar arasında keçirilən bu cür yarışların bizim ölkəmizdə keçirilməsi sevindirici haldır. Oyunlar yüksək səviyyədə keçdi. Bizim əsas məqsədimiz ölkələr arasındakı dostluq, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsidi. Buna da nail olduq. Yarışlarımız bitmədi. Yaxın gələcəkdə belə yarışlar Türkiyə və Gürcüstan Respublikalarında da təşkil olunacaq. Mən bir daha hamınızı təbrik edir və gələcək xidmətlərinizdə uğurlar arzulayıram."

Sonda komandanlıq heyəti və hər üç ölkənin iştirakçıları birlikdə xatirə şəkli çəkdirdilər.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# Şəmkirli gənclər "Əsgərə məktub" layihəsinə qatılıb

*"Vətən Uğrunda!" səyyar təşviqat dəstəsi ön xətdə xidmət edən hərbi qulluqçulara mənəvi dayaq olmaq, ictimaiyyətlə ordu arasında birliyi daha da gücləndirmək məqsədilə keçirilən "Əsgərə məktub" layihəsini Azərbaycanın müxtəlif regionlarında davam etdirir.*






Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, növbəti tədbir Şəmkir rayon İcra Hakimiyyətinin və Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə Şəmkirdə keçirilib.

Görüşdə çıxış edənlər layihənin əhəmiyyətindən danışaraq bildiriblər ki, belə tədbirlərin keçirilməsində məqsəd Vətənimizin müdafiəsinə hər an hazır olan gənclər yetişdirmək, onlara hərbi vətənpərvərlik ruhunu aşılamaqdır. Tədbir çərçivəsində görülən işlər və həyata keçirilən fəaliyyətlər barədə videoçarx nümayiş etdirilib.

Şəmkir rayon ictimaiyyəti, şagirdlər, müharibə veteranları videogörüntü vasitəsilə və yazılı şəkildə Azərbaycan Ordusu sıralarında xidmət edən əsgərlərimizə xoş arzularını çatdıraraq, daim onlara dəstək olduqlarını vurğulayıblar. Məktublar "Vətən Uğrunda!" səyyar təşviqat dəstəsi tərəfindən ön xətdə xidmət edən əsgərlərə çatdırılacaq.

Tədbirin sonunda müharibə veteranlarına Gəncə Qarnizonu Zabitlər Evinin rəhbərliyi tərəfindən fəxri fərmanlar təqdim olunub.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 259
Nüsxə 3525